# “Üşüyürəm sözə sarı”...



■ Zeynəb Əliqızı

Gözlərimə payız gəlir,
Bulanır ömrün suları.
Batıram dərya gözünə,
Üşüyürəm sözə sarı.

Bu, Şəfəq Sahiblinin ”sözə sarı” gedən duyğularından bir neçə misradır. Şəfəq sözə sarı çox ehtiyatla irəliləyir. Onun könül duyğuları zərifdir, şeirlərində sözləri ehtiyatla seçib işlədir. Elə düşünmək olar ki, bu, insanın xarakterindən də irəli gələn amillərdəndir. Ola bilər ki, bir qadının həlim, mülayim rəftarı onun duyğularına da təsir etsin. Amma hər halda, bir qədər utancaq hisslərin təzahüründən yaranan misralar daha səmimi və təsirli olur.

*...Ölürəm, ölürəm*
*Anam üçün*
*Ölürəm atam üçün.*
*Ölürəm hər sabah*
*Görmək arzusuyla*
*Oyanıb görə bilmədiklərim üçün!*

Bu misralar artıq çoxdan ana, valideyn olmuş bir şəxsin dilindəndir. Amma valideynləri üçün ağlayan bir uşağın dediklərinə bənzəyir... Demək olar ki, dünyasını dəyişmiş valideynləri üçün darıxan, onların yoxluğundan kədərlənən bütün övladların duyğusudur bu hisslər. İnsanın hansı yaşda olmasına baxmayaraq, valideyninin daim yanında olması istəyi onu tərk etmir. Hər kəs üçün çox təbii olan bu hisslər Şəfəqin misralarında çox kövrəkdir, nisgillidir.

*Sevgi başdan yalansa,*
*Ürək daşdan yonulsa,*
*Dünya özü oyunsa,*
*Dolusu nə, boşu nə?!*

Bu da onun şam işığı tək titrək etiraflarından biri. Əlbəttə, nə sevgi başdan-əvvəldən yalandır, nə ürək daşdandır. Bunu Şəfəq özü də bilir. Lakin o, nəyəsə etraz edir, nədənsə şikayət edir. Onun etirazları isə çox zərifdir. Sanki o, heç kəsin qəlbinə dəymək, ruhunu incitmək istəmir, hisslərini ehtiyatla ortaya qoyur.

”Mən heç kəsdən qorxmuram. Qorxuram tək özüm-özümdən”. Bu fikirlərdə isə özünə qarşı bir tələbkarlıq var, sanki insanın özünün özünə hesabatıdır. İçindəkilərlə mübarizə onu özünü tanımağa vadar edir. Amma burada bir inamsızlıq da var, özündən ”çıxa bilməmək” inamsızlığı.

Şəfəqin ”Qələbə ətri” şeiri də var. Burada o, duyğularını çəkinmədən dilə gətirir. Bayaqdan ehtiyatla, çəkinə-çəkinə işlətdiyi ifadələri daha cəsarətlə söyləyir. O, bir əsgər anası kimi daha ürəkli, daha cəsarətlidir. Oğlunu hərbi xidmətə yola salan ana indi hətta bir qədər hökmlüdür. Onun özü ilə tənha, baş-başa qalaraq ehtiyatla yanaşdığı duyğular indi sanki öz-özünə dilə gəlir.

*Şəhid eşqi naminə*
*Döyüş alın yazındı.*




*Səngər-səngər arzular,*
*Nəfəsinlə qızındı.*

Bununla belə:

*Sellənən göz yaşlarım,*
*a sığışmır ovcuma.*

*Vətən sənə əmr edir,*
*Haydı, əsgər, hücuma!*

Deyərkən, göz yaşlarını da saxlaya bilmir. Ancaq bu göz yaşları bayaqkı qaranlıqda ağlayan və ya gül-çiçək üzərinə düşən zərif şehə bənzəmir. Müəllif həqiqətlə üz-üzə dayanıb. Bayaqkı mücərrəd duyğulardan əsər-əlamət qalmayıb...

Müəllifin Vətəni, Ulu Türkiyəni vəsf edən şeirləri isə daha yaddaqalandır. Bu sevginin ünvanı artıq bəllidir.

*Altaylardan başlanan*
*yollarına qurbanam,*
*Bir-birinə sarılan*
*qollarına qurbanam.*
*Göy Tanrının haqqıdır*
*ruhumdakı bu inam,*
*Bir sinədə döyünən iki*
*müqəddəs canım,*
*Mənim ulu Türkiyəm,*
*şanlı Azərbaycanım!*

Şəfəq Sahibli Rəsul Rza mükafatçısıdır. 2006-2007-ci illərdə ilin ən yaxşı şair yazarı adına layiq görülüb. ”Könlüm susuz səhradır”, ”Biçilmiş çiçəklər”, ”Həsrətin evimin qonağı olur”, ”Alovuna üşüyən şam” və s. şeirlər kitablarının müəllifidir. Şeirləri bir neçə xarici dilə tərcümə edilib və çap olunub. Şeirlərinə mahnılar yazılıb. Şairə yeni, daha böyük uğurlar arzusu ilə...



Kaspi 2019.- 13-15 aprel.- S.